AMEA *İqtisadiyyat İnstitutu*
ISSN 2519-4909

«ELMİ ƏSƏRLƏR» - №3- 2018
E-ISSN 2519-4917

UOT: 339.9: 336.1; 336.11; 336.741.28; 336.7
JEL: F33; F36

İBRAHİMOV T.T., dosent,
Bakı Dövlət Universiteti, Dünya İqtisadiyyatı Kafedrası
E-mail*: Tayar-7@mail.ru*

KİOTO KONVENSİYASI VƏ GÖMRÜK NƏZARƏTİ

Xülasə

Məqalədə Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında Beynəlxalq Konvensiyanın (Kioto Konvensiyasının) struktur təhlili məsələləri öz təsbitini tapır.

Gömrük nəzarəti anlayışının xrononoloji baxımdan təkamülü müxtəlif ölkələrin gömrük qanunvericiliyi əsasında xarakterizə olunmaqla onun müasir tərifi verilir. Konvensiyasının tələblərinə uyğun olaraq gömrük nəzarətinin prinsipləri göstərilməklə qloballaşma dövründə audit və risklərin idarə olunması metodlarının gömrük nəzarəti zamanı geniş tətbiq olunması göstərilir.

Açar sözlər: *gömrük nəzarəti, Kioto Konvensiyası, baxış, yoxlama, müayinə, prosedur, audit, post-audit,risk, risklərin təhlili, informasiya sistemi.*

GİRİŞ

Məlumdur ki, bu gün globallaşma şəraitində gömrük nəzarəti "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın (İnternational Convention onthe simplification and harmonization of Customs procedures) prisipləri əsasında təşkil olunur[1]. Bu konvensiya Ümumdünya Gömrük Təşkilatı (ÜGT) tərəfindən 18 may 1973-cü ildə Yaponiyanın Kioto şəhərində imzalanaraq 25 sentyabr 1974-cü ildə qüvvəyə minmişdir. Bu Konvensiyanın məqsədi gömrük prosedurları və qaydalarının sadələşdirilməsi və uzlaşdırılmasından ibarət olmaqla bu sahəyə həsr olunmuş yeganə konvesiyadır. Konvensiya bir tərəfdən gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi yolu ilə xarici ticarət fəaliyyətinin stimullaşdırılımasına yönəldilmişdirsə, digər tərəfdən dövlət mənafeləri və cəmiyyət arasında qarşılıqlı münasibətlərin tarazlaşdırılmasına yönəldilməklə gömrük idarəçiliyinə həsr olunmuşdur. Gömrük idarəçiliyinin səmərəliliyinin yüksəldilməsi, qarşıya qoyulmuş məsələnin səmərəli həlli üçün risklərin idarə olunması və audit metodlarının tətbiqi əsasında yeni nəzarət metodlarının tətbiqi tövsiyə olunur. Məhz bu Konvensiyadan müxtəlif ölkələrin gömrük qanunvericiliyinin hazırlanmasında istifadəni və onun aktuallıq kəsb etdiyini nəzərə alaraq tədqiqat işi konvensiyanın şərhinə, onun reallaşdırılması, gömrük nəzarəti məsələlərinə həsr olunmuşdur.

ÜGT-nın daimi texniki komitəsi tərəfindən hazırlanmış, bu beynəlxalq konvensiya bəzən də Kioto konvensiyası da adlanır [2].

Konvensiya 4 fəsil, 20 maddədən ibarət olmaqla Əsas mətndən və faktiki olaraq onun ayrılmaz tərkib hissəsi olan ayrı-ayrı gomrük prosudurlarına aid olan 10 Xüsusi əlavədən ibarətdir.

Mətndə yalnız konvensiyanın məqsəd və prinsipləri onlara nail olmaq məsələləri əks olunur. Baş əlavə gömrük tənzimlənməsi üzrə baza prinsiplərni və ona yanaşmaları özündə ehtiva edir. Ölkələrin Konvensiyaya qoşulması ilə əlaqədar onun Baş əlavəsinin qəbulu həmin ölkələr üçün məcburidir. Xüsusi əlavələrdə isə gömrük nəzarətinin aparılması mərhələləri, obyektləri və subyektləri, həmçinin gömrük prosedurları ayrıca təsvir olunur. Konvensiyaya qoşulmaq üçün razılaşan tərəflərdən hər biri Xüsusi əlavələrdəkiləri qəbul edə bilər, ya da ümumilikdə, heç birini qəbul edə bilməz. Xüsusi əlavələrin təfsirində Xarici İqtisadi Fəaliyyətin (XİF) tənzimlənməsində mallara qeyri-tarif tədbirlərinin tətbiqi və ya tətbiq edilməməsinə aid Konvensiyanın müddəalarında qadağa və məhdudiyyətlər nəzərdə tutulmur. Bu isə malların xarici ticarətində milli qanunvericilik qayda və normalarının tətbiqinə mane olmur. Bundan əlavə Ümumdünya Ticarət Təşkilatı (ÜTT) tərəfindən gömrük idarəçiliyi sahəsində dünyada tətbiq olunan ən qabaqcıl və səmərəli beynəlxalq təcrübə ümumiləşdirilmiş və Baş əlavəyə, həm də Xüsusi əlavələrə Tövsiyə kimi əlavə qismində təqdim

olunmuşdur. Əslində isə bu Tövsiyənin icrası üzvlər üçün məcburi deyildir.

Dünya ticarət dövriyyəsində payı 70 faizdən çox olan 90-dan çox dövlət konvensiyanın üzvdür [4,6].

Qloballaşma prosesi zamanın tələbi olaraq dəyişiklik tələb etdi və ÜGT-nin 26 iyun 1999-cu il tarixli sesiyasında Brüssel şəhərində yeni redaksiyada "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın dəyişdirilməsi haqqında Protokol və dəyişdirilmiş redaksiyada Konvensiya qəbul olundu. Yenidən baxılmış Konvensiyanın bu variantı 3 fevral 2006-cı il tarixindən qüvvəyə minmişdir [5].

Konvensiyanın məqsəd və xüsusi prinsipləri aşağıdakılar olmaqla müasir şəraitdə gömrük idarəçiliyinin sadələşdirilməsinə yönəldilən audit və riskilərin idarə olunmasının tətbiqinə əsaslanan metodlara keçirilməsini tövsiyə edir.

Məhz göstərilənlər aspektindən konvensiyanın əsas məqsədi daimi olaraq gömrük prosedur və qaydalarının sadələşdirilməsi, tezləşdirilməsi və onun səmərəliliyinin artırılmasına istiqamətlənmiş proqramların həyata keçirilməsindən ibarət olmaqla aşağıdakıları əhatə edir:

- gömrük qaydaları və prosedurlarının tətbiqi ilə əlaqədar proqnozlaşdırılmanın bilinməsini, ardıcıllığın və açıqlığın təminini;
- maraqlı tərəflərə, gömrük işi, gömrük qaydaları və prosedurlarına aid- qanunlar, normativ hüquqi və inzibati aktlar haqqında bütün lazımi məlumatların verilməsini;
- müasir iş metodlarının tətbiqindən- informasiya texnologiyalarından, audit metodları əsasında risklərin idarə edilməsi və nəzarət növlərindən praktiki olaraq maksimum istifadəni;
- lazımi hallarda milli hakimiyyətin başqa orqanları, ticarət birlikləri və s.
- digər dövlətlərin gömrük xidmətləri ilə əməkdaşlığı;
- müvafiq beynəlxalq standartların tətbiqini;
- inzibati və məhkəmə qaydasında prosedurlara baxılması üçün maraqlı tərəflərin maneəsiz çıxışının təmini;
- gömrük prosedurlarının və onun tətbiqi təcrübəsinin fasiləsiz təkmilləşdirilmə məqsədi daşıyan proqramların yerinə yetirilməsi və bununla da onların təsir dairəsinin və səmərəliliyinin artırılması;
- gömrük prosedurlarının və onun tətbiqi təcrübəsinin gözlənilən, ardıcıl və şəffaf halda tətbiqi;
- gömrük qanunlarına, normativ aktlara, inzibati idarəçiliyə, tövsiyələrə, prosedurlara və iş təcrübəsinə aid bütün lazımi məlumatların maraqlı tərəflərə verilməsi;
- nəzarət kimi audit metodları və informasiya texnologiyalarından maksimum dərəcədə praktiki istifadə və müasir metodların tətbiqi əsasında risklərin idarə edilməsi və s. prinsiplər aiddir.

Elə bu xarakterizə olunan məqsəd və prinsiplər əsasında reallaşdırma Ümumdünya Gömrük Təşkilatının başlıca tövsiyəsi olmaqla, nəticə etibarı ilə onun beynəlxalq ticarətə xidmət edəcək ən böyük töhfəsidir.

Məhz göstərilənlər baxımından göründüyü kimi, Kioto Konvensiyası praktiki olaraq bütövlükdə gömrük məsələlərini tənzimləyən və mahiyyət etibarı ilə də gömrük işi sahəsində ən universal beynəlxalq hüquqi aktdır. Ümumilikdə isə bu Konvensiya xarici ticarət fəaliyyətinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin sadələşdirilməsi və tezləşdirilməsi əsasında onun stimullaşdırılmasına yönəldilmişdir.

Respublikamız da yeni redaksiyada qəbul olunmuş bu Konvensiyaya ölkə prezidentinin 9 dekabr 2003-şü il tarixli 555-IIQ saylı imzaladığı fərman əsasında qoşulmuş və Azərbaycan Respublikası bu Konvensiyaya qoşulmuş 40-cı iştirakçı ölkədir [3,4].

Kioto konvensiyasının Baş Əlavəsinin 2-ci bölməsi "Gömrük nəzarəti"nin tərifinə aid olunur. Bu tərifə uyğun olaraq E.7/F.3 bəndləri üzrə (E.7-ingilis, F.3 isə fransız dilində anlayışı ifadə edən sıra nömrəsidir) "gömrük nəzarəti" dedikdə gömrük qanunvericiliyinin gözlənilməsinə təminat məqsədilə gömrük orqanları tərəfindən həyata keçirilən tədbirlərin məcmusu başa düşülür [1].

Məhz gömrük nəzarətinin obyektini müəyyənləşdirərkən, konvensiya nəzərdə tutur ki, bütün mallar, o cümlədən nəqliyyat vasitələri onların hansı gömrük proseduru altında yerləş-

dirilərək gömrük ərazisinə gətirilmə-idxal etmə və ya bu ərazidən aparılma-ixrac etmə məqsədindən asılı olmayaraq, onlar tarif və ya qeri-tarif tənzimləmələrinə məruz qalmalıdırrla. Ona görə də, həmin obyektlər üzərində gömrük nəzarəti aparılmalıdır.

Bu baxımdan gömrük nəzarəti anlayışının tərifi və gömrük nəzarətinin təşkili və aparılması müddəaları Kioto konvensiyasının müddəalarına uyğunlaşdırılmaqla Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (AR GM) öz əksini tapmışdır.

Göstərilənlər isə AR GM-nin əsas müddəalar bölməsinin I fəsilinin 1-ci maddəsinin 1.0.14 yarımbəndində, habelə 82-99-cu maddələrinə aid olunur ki, bunlar da Konvensiyadakı əsas normaları özündə saxlamaqla onunla identik olur-eyniyyat təşkil edir [1,7 s.6;72-89].

Kioto konvensiyasının müddəalarına uyğun olaraq gömrük nəzarəti gömrük qanunvericiliyinə riayət edilməsinə aid göstəriş və digər hüquqi-normativ aktların tətbiqini lazımi səviyyədə təmin etməklə beynəlxalq ticarət üçün səmərəli şərtlərin maksimum sadələşdirilməsi yolu ilə həyata keçirilməlidir. Ona görə də, gömrük nəzarəti qarşısında qoyulmuş məqsədlərə nail olmaq üçün zəruri olan gömrük nəzarəti formalarını minimum həddə tərtibində tətbiq olunması ilə kifayətlənmək olar.

Məhz xarakterizə olunanlar baxımından gömrük nəzarəti minimum həddə qədər məhdudlaşdırılmalı və imkan daxilində seçmə yolu ilə (gömrük nəzarəti formalarını-baxış, yoxlama, müayinəni) risklərin idarə olunması metodlarının maksimum dərəcədə tətbiqi əsasında məqsədə nail olmaq lazımdır. Bunlar isə Konvensiyanın Baş Əlavəsindəki gömrük tənzimlənməsinin əsas prinsiplərinə uyğun olaraq mahiyyət etibarı ilə gömrük nəzarətinin səmərəliliyi və etibarlılığına təminat üçün yaradılır. Lakin bununla da bütün gömrük orqanlarında təqdim edilən sənədlər və verilən məlumatların dəqiqliyini tam yoxlamaq və təmin etmək mümkün deyildir.

Buna görə də, məhdud resurslardan çox səmərəli istifadə olunmalıdır. Əsas diqqət və bütün səylər isə gömrük xidmətinə həvalə olunmuş dövlət maraqlarının təmininə -o cümlədən təhlükənin aradan qaldırılması, yerli əmtəə istehsalçılarının mənafelərinin qorunması, gömrük rüsum və vergilərindən yayınma tədbirlərinin aparılması istiqamətinə yönəldilməlidir.

Digər tərəfdən isə qanunvericiliyin tələblərinin pozulmaması riskiləri gözlənilmirsə və ya mümkün pozuntuların nəticələri üzrə minimum riski ehtimalı olarsa, onda malların daşınması, nəqliyyat vasitələrinin boş dayanmaları, malların və nəqliyyat vasitələrinin gömrük terminalında saxlanılması, gömrük rəsmiləşdirilməsi ilə əlaqədar biznes cəmiyyətinin-sahibkarların əsassız məsrəflərə yol verməməsi üçün onlara ən sadələşdirilmiş texnologiyalar təklif etmək lazımdır[1, s.8-10]. Ümumilikdə isə gömrük nəzarəti funksiyası bir üstqurum kimi gömrük orqanlarına aid olmaqla konkret tarixi şəraitə uyğun olaraq müxtəlif formalarda özünü biruzə verməklə ölkə iqtisadiyyatının müdafiəsinə, qeyri qanuni dövriyyənin qarşısının alınmasına xidmət edir. Bu baxımdan gömrük orqanları tərəfindən gömrük nəzarəti məsələlərinə diqqət yetirilir.

Sabiq ittifaqın gömrük qa bu özünü daha qabarıq şəkildə göstərirdi. Belə ki, gömrük nəzarətinə dair ilk müddəaların SSRİ gömrük Nizamnaməsində [13, s.102] öz əksini tapmasına baxmayaraq, hətta qəbul olunmuş Gömrük Məcəlləsində (1964-cü il) belə "gömrük nəzarəti"-nin geniş şəkildə tətbiqilə əlaqədar onun tərifi belə ayrılıqda verilməmişdir[11]. Lakin yeni qəbul olunmuş (1991-ci il) SSRİ Gömrük Məcəlləsinin III bölməsi gömrük nəzarətinə həsr olunmuş və onun məqsədi, subyekytləri, formaları, obyektlərin nəzarət altında qalma müdddətləri göstərilən bölmədə ətraflı interpretasiya olunmuşdur [12]. Ümumilikdə isə "gömrük nəzarəti" anlayışı əksər ölkələrin gömrük qanunvericiliyində [12-14], habelə bu sahədə tədqiqatlar aparan alimlərin A. Polişukun, N. Qolaşapovun , S. Xalipovun və s. [15,25,16] əsərlərində və digər "gömrük almanaxı" məcmuələrində [24] öz təsbitini tapmışdır.

Lakin bu tədqiqatlar Kioto konvensiyasının tövsiyə, prinsip və tələblərinə cavab vermir. Məhz bu məsələlər- yəni Kioto konvensiyasının tövsiyə və qaydaları 2003-cü ildən sonra müxtəlif ölkələr tərəfindən qəbul olunmuş

gömrük qanunvericiliyi və bu sahəyə dair digər hüquqi-normativ aktlarda [1,17-19], habelə bəzi tədqiqatçıların əsərlərində öz əksini tapmışdır [15-16, 20-23]. Təhlil göstərir ki, "gömrük nəzarəti" gömrük orqanlarının müstəsna səlahiyyətinə aiddir və bu orqanlar gömrük nəzarətinin formaları, metodları, vasitələrinin tətbiqi ilə əlaqədar yüksək dərəcədə məsuliyyət daşıyırlar. Elə bu baxımdan da müasir gömürük nəzarətinin mexanizm və metodologiyasını, onunn məntiqi cəhətdən fəlsəfi mahiyyətini başa düşmək üçün gömürük nəzarəti sahəsində ümumi qəbul olunmuş və tanınmış beynəlxalq standart kimi "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın yuxarıda təhlil olunan tövsiyə və prinsiplərinə əməl etmək vacib şərtlərdəndir. Bu göstərilənlər də Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin III bölməsinin 6-8-ci fəsillərində öz əksini tapmışdır [1,s.34-44]. Xarakterizə olunanlarla əlaqədar Konvensiyada öz təsbitini tapmış tövsiyə və prinsiplərdə, informasiya texnologiyalarından, daimi olaraq nəzarətin qiymətləndirilməsi, seçmə üsuluna əsaslanmaqla risklərin idarə olunması sistemindən maksimum dərəcədə geniş istifadə olunur[26].

Beləliklə, təhlil nəticələrinə, Kioto Konvensiyasının tövsiyə və prinsiplərinə uyğun olaraq "gömrük nəzarəti" nə ümumilikdə belə bir tərif vermək olar: Gömrük nəzarəti xüsusi hüquqi rejim olub, gömrük orqanları tərəfindən gömrük işi sferasında gömrük və digər qanunvericiliyin tələblərinin gözlənilməsinin təmini məqsədilə tətbiq olunan forma, üsul, vasitələrin məcmusundan ibarət geniş miqyaslı tədbirlər toplusudur.Bu tədbirlər içərisində isə Konvensiyada göstərildiyi kimi, post auditəburaxılşdan sonra nəzarətin aparılmasına, informasiya sistemlərinin tətbiqinə xüsusi diqqət yetirilməlidir.

ƏDƏBİYYAT SİYAHISI:

1. İnternational Convetion on the simplification and harmonization of Custom procedures (as amended) (Revised Kyoto Convention) 1999, viewed 18 November 2012,http //www. Wcoomd.org/Kyoto_New/Content/content.html 21.03 .2018
2. http://www.myhared.ru/side/1326552/ 16/02/ 2018
3. Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiya. Azərbaycan Respublikasının Gömrük Qanunvericiliyi III cild. Bakı "Oğuz Eli", 2009. 684s.
4. Konvensiyanın dəyişdirilməsi haqqında Protokola və. "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyaya. (dəyişdirilmiş redaksiyada) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu. "Azərbaycan " qəzeti, 26 dekabr, 2003-cü il № 298.
5. URL: http:// www.wcoomd.org/ files/ 1.%20Public%20files/ PDFandDocuments/ .
6. About%20Us/ legal_instru/ PG0182E1.pdf. https://www.arivist.ru/shkola-arivistiki/osnovnye-ponjatija/?section=2&id=61 21.03.2018.
7. http//www.wcoomd.org/en/topics/fasilitation/instrumentandtools/conventions/pf_revised_ Kyoto_convaspx 21.03/2018 22:35.
8. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. "Qanun". Bakı.2010. 335s.;"Hüquq ədəbiyyatı". Bakı, 2012, 312 s.
9. K. F. Heydərov, T.T. İbrahimov Gömrük işi iqtisadi suverenlik və təhlükəsizlik. Bakı. 1999, 199s.
10. Глазунова Н. А. Новая философия таможенного контроля. Промышленни России , 2006, №2, с.32-34.
11. T. İbrahimov, M. Salmanov "Bir Pəncərə" konsepsiyası və təhlükəsizliyin təmini. İpək yolu, 2018, №1, s.103-110
12. Ведомости ВС СССР. М. 1964. №20. с.242
13. Ведомости СНД и ВС СССР. 1991. №17 с.484
14. Л. Н. Маркова «Очерки по истории таможенная службы» Иркутск.1987.с.278
15. А. В. Полищук, П. В. Пашко и др. Таможенный контроль: на пути к международным стандартам. Одесса «Пласке» ЗАО. 2009.с.473
16. С. В. Халипов Таможенный контроль «Таможенная РУ».2005.с.135
17.Таможенный кодекс Евразийского экономического союза М. 2017.с.510
18.Таможенный кодекс таможенного союза. М.2015.с.
19.Таможенный Кодекс Украины. Киев. 2017. с.
20. Məhərrəmov A. M., İbrahimov T.T. İnformasiya texnologiyaları gömrük xidmətində, İpək yolu, 2011, №4, s. 22-26.

21. İbrahimov T., Ismayılov H., Qlobal ticarətə təsir və təhlükəsizliyin təmini üçün standartlar, İpək yolu, №3-4, 2009, s. 21-23.

22. Təyyar İbrahimov., Gömrük orqanları sistemi: islahatlar və modernləşdirmə, İpək yolu, No.2, 2017, s.54-63.

23."Qloballaşma mühitində iqtisadi təhlükəsizliyin təmin olunmasında gömrük tənzimlənməsinin rolu" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı:2012, 600s.

24. Таможенный контроль . Принципы и формы.Таможенный Алманах №5.М.,. «Влаговест-В»,150 с.

25. Голощапов Н. А.Таможенный контроль .М.»Экзамен»,2000,320 с.

26. Гасаналиев Р., Электронная Таможенная Служба-новый этап в развитии Азербайджанской таможни [Электронный ресурс] //http//gomruk.gov.az/news73/html 10/19/16.

Ибрагимов Т.Т., доцент
Бакинский Государственный Университет, Кафедра мировой Экономики
E-mail:*Tayar-7@mail.ru*

Киотская конвенция и таможенный контроль

Резюме

В обзорной статье проанализированы структуры Международной Конвенции "Об упрощении и согласовании Таможенных процедур"(Конвенции Киото). С хронологической точки зрения эволюции понятия таможенного контроля на основании таможенного кодекса различных стран дано современное определения этого понятия.

В соответствии с требованиями конвенции охарактеризованы принципы таможенного контроля. Указана целесообразность широкого применения методов аудита и управления рисками в период глобализации.

Ключевые слова: *Таможенный контроль, Киотская Конвенция, осмотр, проверка, обследование, процедуры, аудит,пост-аудит, анализ рисков, риск, информационные системы.*

Ibrahimov T. T., Professor
Baku State University,The Department of World Economics
E-mail: *Tayar-7@mail.ru*

The Kyoto convention and customs control

Summary

This article reviews a structural analysis of the International Convention on Simplification and Harmonization of Customs Procedures (the Kyoto Convention). From a chronological point of view, by showing the evolution of the concept of customs control on the basis of the customs code of various countries is given the modern definition of this concept.

In accordance with the requirements of the convention, the principles of customs control are described. Also, the expediency of the widespread use of audit and risk management methods in the period of globalization is indicated.

The key words: *Customs control procedures, the Kyoto Convention, inspection, checking, procedure, audit, post-audit, risk analysis, risk, information systems.*

Daxil olub: 23.05.2018
Rəy verib: AMEA İqtisadiyyat Institutunun "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər" şöbəsinin əməkdaşı i.f.d *Sarıyev Ə.B.*